

# Öz potensialını kəşf et

ORIFLAME UĞUR PLANI

ORIFLAME
SWEDEN



# 3 mln-dan

ÇOX

Brend partnyor dünyanın 60-dan çox ölkəsində Oriflame-in byüti və Wellness məhsullarını tövsiyyə edir və satır



# No1

Avropa birbaşa kosmetik satış şirkəti



# 50 ildən

ÇOX

İsveçdə af Yoknik qardaşları tərəfindən əsası qoyulmuşdur və artıq yarım əsrdən çoxdur ki, biz gözəllik sahəsində birbaşa satış şirkəti qururuq



# 100

- DƏN ÇOX

alim qabaqcıl kosmetik vasitələrin işlənib-hazırlanması üzərində çalışır



# Oriflame-ə Xoş gəldin!

Oriflame brendinin müstəqil Brend-Partnyoru olmaqla gələcək uğurlarınıza ilk addımları atdınız və indi sizə kim olduğumuz, məhsul fəlsəfəmiz və Oriflame ilə necə pul qazana biləcəyiniz barədə danışmaq istəyirik.

# Digərlərindən fərqlənən byüti-şirkət

Stokholmun mərkəzindəki kiçik bir ofisdən başlayaraq bu gün 60-dan çox ölkədə təmsil olunan qlobal kosmetika şirkəti statusunu qazanan Oriflame-in birbaşa satış modeli məşhurluq qazanır və hal-hazırda biz birbaşa satışla məşğul olan ən iri Avropa kosmetika şirkətlərindən biriyik.

Hər şey 1967-ci ildə Yonas və Robert af Yoknik qardaşlarının öz dostları Benqt Helsten ilə şirkət yaratmaları ilə başladı. Onlar isveç təbiətindən ilhamlanmış, yüksək keyfiyyətli, əlçatan və hamıya uyğun olan kosmetik məhsullar istehsal etməyə başladılar. Robert və Jonas af Yokniklərin təbiətə sevgi və hörmət hissi elə ilk gündən mirasımızın bir hissəsi oldu - biz birbaşa təbiətdən alınan maddələr əsasında məhsullar istehsal edən ilk birbaşa satış şirkətlərindən biri olduq.

Bu gün də biz ən son elmi araşdırmalara uyğun müvafiq bitki mənşəli inqrediyentlərdən istifadə etməyə davam edir və ekoloji və etik inqrediyent əsaslı təhlükəsiz məhsullar yaradırıq. Bir şirkət olaraq biz təbiətin tarazlığını qorumaq və ətraf mühitə mənfi təsiri azaltmaq əzmindəyik.

Birbaşa satışın əsasında şəxsi münasibətlər və tövsiyələr dayanır. Biz inanırıq ki, qazancı bizi tövsiyə edən insanlarla bölüşdürmək lazımdır və artıq 50 ildən çoxdur ki, dünyanın hər yerində insanları xəyallarını gerçəkləşdirməyə və öz bizneslərini qurmağa ruhlandırırıq.

## Gözəllik. İsveçdə yaradılmışdır

Biz İsveç əsilliyik. Bizim gözəlliyə xüsusi baxışımız var. Bizim üçün gözəllik yalnız zahiri görünüşünüz deyil, həm də həyat tərziniz, hissləriniz və əməllərinizdir.

Gözəllik – sağlamlığa göstərdiyiniz qayğı, dəriyə qulluq, özünüifadə və arzuların çin olmağıdır. Gözəllik – özünəəminlikdir.

Gözəllik çətinlinliklərə sinə gərməkdə, daim inkişaf etməkdə və uğur qazanmaqda sənə köməklik göstərən həyat tarazlığı, xarici və daxili dünyanın ahəngdarlığıdır.

# Təbiətdən gələn ilham

**İsveç təbiəti** bizim üçün həmişə vacib rol oynayıb. Dünyada tozağacı ekstraktı kimi təbii inqrediyentlər əsasında kosmetik məhsullar istehsal edən ilk brendlərdən biri olduq.

Təbii inqrediyentlərin potensialına və faydalarına hörmətlə yanaşmağa davam edirik. Bütün ekstraktlarımız təbiətdən alınıb və istifadə etdiyimiz hər bir komponent onların keyfiyyətini, təhlükəsizliyini və mənşəyini təmin etmək üçün ciddi **ekoloji və etik nəzarətdən** keçir.






# Elmin gücü

Bu sənayedə uzun illik təcrübəmiz var və **müasir elmi inkişaflardan istifadə edərək, yüksək keyfiyyətli, effektiv məhsullar istehsal edirik.**

Alimlərimiz və texniki mütəxəssislərimiz preparatlar elmi, kimya, dəri, onun yaşlanması elmi, nutrisiologiya, diyetologiya daxil olmaqla müxtəlif fənlər və bilik sahələrini araşdırırlar və klinik sınaqlar və  əzarət ölçmələrini həyata keçirirlər. Ən müasir elmi-tədqiqat imkanları ilə birlikdə bu, istehlakçılarımız üçün daha da təhlükəsiz və keyfiyyətli məhsullar yaratmağa imkan verir.

# Bu gün qazanın və sabahınız üçün biznes qurun

Hesab edirik ki, öz biznesini qurmaq hər kəs üçün əçal-tan olmalıdır. Bizim biznes imkanlarımız sizə aşağı riskli sahibkarlıq və hətta daha çox şey təklif edir: kiçik qey-diyyat ödən işi ilə öz biznesinizi aça, ilk gündən pul qazana və qlobal birliyimizin bir hissəsi ola bilərsiniz.

Byuti biznesinin həyatınızda hansı yer tutacağına özünüz qərar verirsiniz və part-time və ya tam iş günü məşğul olmaq istədiyinizi özünüz seçirsiniz və biz uğur qazan-mağınız üçün lazım olan əalətlər və təlimi təklif edərək, sizə kömək edəcəyik!

# Oriflame Akademiyası

Oriflame Akademiyası Liderlərimizin təcrübəsi əsasında hazırlanmış təlimlər kompleksidir.

Bura lazımi bacarıqları inkişaf etdirməyə və Uğur Planına uyğun yeni adlar qazanmağa kömək edəcək üsul və vasitələr daxildir.





# Onlayn təlimlər

Onlayn təlimlərimiz daha sürətlə inkişaf etməyə kömək edəcək - istənilən zaman, istənilən yerdə. Qısa, interaktiv kurslar mobil cihazlara uyğunlaşdırılmışdır. Onlarda hər şey var: müştəri ilə düzgün işləmədən tutmuş sosial şəbəkələr üçün kontent yaratmaq üçün məsləhətlərə qədər.

# Bizimlə dünyanı görün

Dünyaya bizimlə baxın
Biznesiniz böyüdükcə beynəlxalq səyahətlərə və Oriflame Konfranslarına qatıla bilərsiniz. Bu, Oriflame ilə ən ekzotik ölkələrə səyahət etmək, lüks otellərdə yaşamaq və unikal tədbirlərdə iştirak etmək üçün əla fürsətdir.

Dünyanın hər yerindən olan Lider həmfikirlər ilə ünsiyyət qurun və nailiyyətlərinizi və digər Liderlərin uğurlarını qeyd edin. Yeni dostlar qazanın və biznesinizi daha da yüksəkliklərə qaldırmaq üçün sizi ruhlandıracaq uğur hekayələrini dinləyin!

12 000 Oriflame Brend-Partnyoru 2019-cu ildə beynəlxalq konfranslarda iştirak edərək Oriflame ilə səyahət etdi.










Blacks
Blacks
Blacks
G-OSNX
ORIFLAME
SWEDEN
Celebrity X Cruises
Celebrity SILHOUETTE




"Yaxşı Lider bütöv bir keyfiyyətlər və dəyərlər sisteminə sahibdir, hamı Lider ola bilməz, amma hər kəs özündə Liderlik keyfiyyətlərini inkişaf etdirə bilər, çünki Lider kimi doğulmurlar, Lider olurlar! "

**Esmira Yunusova,**
Sapfir Direktor,
Azərbaycan

"Biznesin hərtərəfli inkişafı üçün təqdim edilən fantastik imkanlara görə bu şirkətə vuruldum və xəyalını qurduğum həyatı yaşamağa başladım".

**Rəksanə Mahmudova,**
Sapfir Direktor,
Azərbaycan



# Oriflame ilə necə qazanmaq olar

Oriflame Uğur Planı Oriflame ilə kompensasiya planıdır.

Artıq bu gün müştə rilərə məhsul sataraq, başqalarını etdiyiniz işə cəlb edərək, gəlir səviyyənizi daima artıraraq, öz işinizi quraraq, pul qazanmağa başlaya bilərsiniz.

Buradakı və növbəti səhifələrdəki nümunələr qazancınızın necə hesablandığını göstərmək üçün nəzərdə tutulmuşdur. Oriflame brendinin müstəqil Brend-partnyorları bütün hesablamalar avtomatik olaraq aparılır.



# 4 fərqli gəlir növü

Oriflame ilə pul qazanmağın dörd yolu var - Dərhal Gəlir, Həcmli Endirim, bonuslar və nağd pul mükafatları əldə edə bilərsiniz.

### 1. Dərhal Gəlir

Bu məhsulları sataraq qazandıqlarınızdır.

### 2. Həcmli Endirim

Siz şəxsi satışlarınız və Şəxsi Qrupun satışları sayəsində Həcmli Endirim qazanırsınız.

### 3. Bonuslar

Siz Liderlərin inkişafına və onları uğura aparan yolda göstərdiyiniz köməyə görə mükafatlandırılacaqsınız.

### Yeni rütbələrə görə mükafatlar

Siz Direktor səviyyəsindən başlayaraq Uğur Planına əsasən hər dəfə yeni rütbəni bağlayarkən birdəfəlik pul mükafatı qazanacaqsınız.

# 1. Dərhal Gəlir

## Məhsulları satın və dərhal gəlir əldə edin

Oriflame Brend-partnyoru olduğunuz zaman məhsulları qohumlarınıza, dostlarınıza, həmkarlarınıza və tanışlarınıza tövsiyə edirsiniz.

Satışlarınızı artırmaq üçün **bir çox vasitəni** sizə təqdim edirik - Oriflame kataloqunu, məhsullar üzrə təlimatları və saysız onlayn alətləri. Müştərilərinizin 24/7 sifariş verə biləcəyi və bütün satışlar qrup satışları sayılacaq "Oriflame Onlayn Brend-Partnyor" proqramı çərçivsəində öz şəxsi **onlayn mağazanızı** da aça bilərsiniz. "Oriflame Onlayn Brend-partnyoru" Oriflame brendi altında **hazır onlayn satış həllidir**.

İstehlakçılar üçün məhsulun qiyməti ilə (İQ - onu kataloq və ya onlayn mağazada görürsünüz) və Oriflame brend Tərəfdaşının qiyməti (DQ - məhsul üçün ödədiyiniz qiymət) arasındakı fərq şəklində **20% Dərhal Gəlir** əldə edirsiniz.

## Dəstlərin Satışı

Dəriyə qulluq dəsti müştərilərə g ö zəllik, sağlamlıq və əla dəri üçün **kompleks həll** təklif edir. Dəstlər həmçinin 20% daha çox Bonus Ballar* gətirir və onların satışı sizə daha da çoxqazanmağa kömək edir.

### Nümunə – bir məhsulun satışı

Siz bir NovAge Ecollagen Wrinkle Power gündüz kremi satırsınız




**İstehlakçı qiyməti:** 57.00 AZN
**Brend partnyor qiyməti:** 43.80 AZN

**Dərhal gəlir:**
57.00 - 43.80 = **13.20 AZN**

**və ya:** 57.00 x 0.23 (23%) = **13.20 AZN**

### Nümunə – dəst satışı

Siz bir NovAge Ecollagen Wrinkle Power dəsti satırsınız.



**İstehlakçı qiyməti:** 205.00 AZN
**Brend partnyor qiyməti:** 158.00 AZN

**Dərhal gəlir:**
205.00 - 158.00 = **47.00 AZN**

**və ya:** 205.00 x 0.23 (23%) = **47.00 AZN**

* Bonus Ballar haqqında 14-cü səhifədə daha çox məlumat əldə edin.

# 2. Həcmli Endirim

## Başqalarını dəvət edin və Həcmli Endirim qazanın

İnsanları Oriflame Brend-partnyoru olmağa dəvət etdiyiniz zaman, onlara məhsulları tövsiyə etməyi və sizin kimi pul qazanmağı öyrədərək, Sponsor rolunu icra etməyə başlayırsınız. Eyni zamanda, gə liriniz dəvət olunan Oriflame Brend-partnyorların sayının artması ilə artır.

Şəxsi satış həcmindən və dəvət etdiyiniz bütün Oriflame Brend-partnyorları və onların dəvət etdikləri Brend-partnyorlardan ibarət Şəxsi Qrupunuzun satışh əcmindən **3%-dən 22%-ə qədər Həcmli Endirim (HE)** əldə edə bilərsiniz.

Həcml i Endiriminiz üç göstəriciyə əsasən hesablanır:

İnsanları Oriflame Brend-partnyoru olmağa, məhsulları satmağa və gəlir əldə etməyə dəvət edəndə, sizin gəliriniz həmçinin artır.

Siz şəxsi satış həcmindən və sizin Şəxsi Qrupun satış həcmindən 3%-dən 22%-ə qədərini Həcmli Endirim (HE) kimi əldə edə bilərsiniz.

Həcml i Endirim haqqında daha ətraflı məlumatı Menecer adına çatdıqdan sonra alacağınız Uğur Planının tam versiyasında tapa bilərsiniz.

## 1 Bonus Balları

**Bonus balları (BB)** dəyərindən asılı olaraq hər bir Oriflame məhsuluna verilir. **Daha bahalı məhsullar və dəstlərin Bonus Balları daha çoxdur.**

Sizin şəxsi satışlarınız və Şəxsi Qrupun* satışlarına görə bonus balları hər kataloq dövründə toplanılır. Bonus Ballarının ümumi sayı hər bir kataloq dövrünün sonunda yer alan Həcmli Endirimini təyin edir.

**Bonus Balları aşağıda təqdim edilmiş cədvələ uyğun olaraq Həcmli Endirim səviyyəsinə konvertasiya edilir.**

| Bonus Balları | |
|---|---|
| 7 500+ | 22% |
| 5 000–7 499 | 18% |
| 3 000–4 999 | 15% |
| 1 800–2 999 | 12% |
| 900–1 799 | 9% |
| 450–899 | 6% |
| 150–449 | 3% |
| 0–149 | 0% |

* Bazardan asılı olaraq kataloq 21 gün və ya bir ay ərzində etibarlıdır. Kataloqun etibarlılıq müddəti Həcmli endirimi rütbələr və konfranslar üçün kvalifikasiyaların hesablanması üçün, həmçniin kataloqun xüsusi təklifləri üçün istifadə olunur.

## 2 Həcmli Endirim

**Həcmli Endirim səviyyəsi** – şəxsi satışlar və Şəxsi Qrupun satışlarına görə aldığınız faizdir.

Şəxsi satışınızdan tam Həcmli Endirim əldə edirsiniz. Şəxsi Qrupunuzun satışlarından öz Həcmli Endirim səviyyənizlə birinci səviyyə Brend-Partnyorlarınızın Həcmli Endirimi səviyyəsi arasındakı fərqi əldə edirsiniz**.

## 3 Satış Həcmi

**Satış Həcmi (SH)** – vergiləri (ƏDV) çıxmaqla Məsləhətçilər üçün qiymət vərəqi üzrə xüsusi qiymətdir (DQ). Satış Həcminə əsasən Brend-partnyorun Həcmli Endirimi hesablanır.

**Misal:**

| Siz | Birinci səviyyə | Fərqlər |
|---|---|---|
| 12%<br>200 BB | A **1 200 BB = 9%** | 12% - 9% = 3% |
| | B **400 BB = 3%** | 12% - 3% = 9% |
| | C **650 BB = 6%** | 12% - 6% = 6% |

Şəxsi satışlardan (200 BB) və qrup satışlarından (1200 + 400 + 650 BB) = 2450 BB ümumi Bonus Balları 12%- lik Həcmli Endirim səviyyəsinə keiçr. Şəxsi satışlarınızdan 12% Həcmli Edirim əldə edirsiniz.

Qrup satışlarından siz əldə edirsiniz:

- 3% Oriflame A Brend-partnyorun satış həcmindən
- 9% Oriflame B Brend-partnyorun satış həcmindən
- 6% Oriflame C Brend-partnyorun satış həcmindən

**Bu nümunədə:**
**1 BB = 1 AZN**

**İndi əldə etdiyiniz ümumi Həcm Endirimini hesablayaq:**

- Şəxsi satışlarınızdan:
  12% x (200 BB x 1 AZN) = **24 AZN**
- Oriflame A Brend-partnyorunun satış həcmindən:
  12% - 9% = 3%, 3% x (1200 BB x 1 AZN) = **36 AZN**
- Oriflame B Brend-partnyorunun satış həcmindən:
  12% - 3% = 9%, 9% x (400 BB x 1 AZN) = **36 AZN**
- Oriflame C Brend-partnyorunun satış həcmindən:
  12% - 6% = 6%, 6% x (650 BB x 1 AZN) = **39 AZN**

**Həcmli Endirimdən cəmi gəlir = 135 AZN**

# 3. Bonuslar

## Oriflame Brend-partnyorlarınızı inkişaf etdirin, dəstəkləyin və bonuslara kvalifikasiya olun

Başqalarını öyrə dərək və dəstəkləyərək, bununla Uğur Planına uyğun olaraq yeni rütbələr qazanaraq, biznesinizi inkişaf etdirə bilərsiniz. Birinci səviyyəli Oriflame Brend-partnyorlarınız 22% səviyyəsinə çatdıqda, onlar və onların Oriflame Brend-partnyorları Şəxsi Qrupunuzdan ayrılır və özləri 22%-lik qrup olurlar. İndi bir Sponsor olaraq onlardan Həcmli Endirim ala bilməzsiniz, ancaq bonuslar almağa başlayırsınız.

Uğur Planında altı növ bonus tapa bilərsiniz. İddia edə biləcəyiniz bonusların sayı, birinci səviyyənizdəki 22%-lik qrupların sayından asılıdır. Onlar nə qədər çoxdursa, bir o qədər çox strukturunuzun dərinliyindən bonuslar ala bilərsiniz. Və o zaman siz həqiqətən gəlirlərinizin artımını görə bilərsiniz - ilk baxışdan hər bir bonusun faiz nisbətində ölçüsü əhəmiyyətsiz görünsə də, onlar bütün strukturunuzun qruplarından tutulur və ümumi məbləğ olduqca böyük ola bilər.

### Gəlin bunun necə işlədiyinə baxaq

Aşağıdakı nümunədə birinci səviyyədəki bütün 22%-lik qruplarınızın Satış Həcminin 5%-ni təşkil edən 5% Oriflame bonusunu alırsınız.




## Oriflame Bonusları

| Bonus | Birinci səviyyənin ayrılmış 22% qruplarının lazımi sayı | Bonus hansı qruplardan hesablanır |
|---|---|---|
| **Oriflame bonusu 5%** | 1 | 1-ci səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı Baş Menecer Satış Həcmli qruplara qədər |
| **Qızıl bonus 2%** | 2 | 2-ci səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı 1-ci səviyyə qruplarının Qızıl bonus alıcısına qədər |
| **Sapfir bonus 0,5%** | 4 | 3-cü səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı 2-ci səviyyə qruplarının Sapfir bonus alıcısına qədər |
| **Brilyant bonus 0,25%** | 6 | 4-cü səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı 3-cü səviyyə qruplarının Brilyant bonus alıcısına qədər |
| **İkiqat Brilyant bonus 0,125%** | 10 | 5-ci səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı 4-cü səviyyə qruplarının Brilyant bonus alıcısına qədər |
| **İcraçı bonus 0,0625%** | 12 | 6-cı səviyyənin ayrılmış 22%-lik qruplarından və daha aşağı 5-ci səviyyə qruplarının İcraçı bonus alıcısına qədər |

Bonuslar və onlara necə kvalifikasiya oluna biləcəyiniz barədə daha çox məlumatı Uğur Planının tam versiyasından əldə edə bilərsiniz.

Oriflame Brend-partnyoru A birinci səviyyəsində bir 22%- lik qrupunuz var.

Oriflame Brend-partnyoru A qrupunun Satış Həcminin 5%-ni alırsınız: 5% x (7500 BB x 1 AZN) = 375 AZN

**Sizin 5%-lik Oriflame bonusunuz: 375 AZN**

## Yeni rütbələrə görə mükafatlar

### Hər dəfə Uğur Planı üzrə yeni rütbəyə yüksələndə siz birdəfəlik ödəniş əldə edirsiniz:

**1000 $**-dan (Direktor) **1 000 000 $**-a kimi (Brilyant Prezident). Növbəti bölmələrdə siz hər bir rütbə üçün kvalifikasiyalar və meyarlar haqqında daha ətraflı öyrənəcəksiniz.

18-19-cu səhifələrdə bütün adları, onlara görə verilən pul mükafatlarını və digər üstünlükləri görə bilərsiniz.

"Tədbirlərdə tanınmaya həsr olunan hissəni xüsusilə sevirik. Öz uğurlarımızdan həzz alırıq və Liderlər yeni rütbələr qazananda biz də motivasiya olunuruq."

**Zəminə və Bəxtiyar Quliyevlər,**
Brilyant Direktorlar,
Azərbaycan






# Oriflame Uğur Planı

KVALİFİKASİYA MEYARLARI

Uğura doğru ilk addımlarınızı atdınız, amma bu, yalnız başlanğıcdır. Oriflame Uğur Planının inanılmaz imkanlar, üstünlüklər və qazanc potensialı ilə bir çox səviyyəsi var - böyümək üçün səbəb var. Tək olmadığınızı unutmayın - yolunuzun hər addımında sizə dəstək olacağıq!

## ORIFLAME **BREND PARTNYORU**

**0% Oriflame Brend partnyoru**
0–149 BB Şəxsi Qrupunuzda.

**3% Oriflame Brend partnyoru**
150–449 BB Şəxsi Qrupunuzda.

**6% Oriflame Brend partnyoru**
450–899 BB Şəxsi Qrupunuzda.

**9% Oriflame Brend partnyoru**
900-1799 BB Şəxsi Qrupunuzda.

## MENECER KOMANDASI

**12% Menecer**
1800–2999 BB Şəxsi Qrupunuzda.

**15% Menecer**
3000–4999 BB Şəxsi Qrupunuzda.

**18% Menecer**
5000–7499 BB Şəxsi Qrupunuzda.

**Baş Menecer**
Üç variant:
- minimum 7500 BB;
- Şəxsi Qrupda minimum 3000 BB və birinci səviyyədə bir 22%-lik qrup;
- iki və daha çox 22%-lik qrup.

## DİREKTORLAR KOMANDASI

**Direktor**
17 kataloq dövründən ard-arda 8-i ərzində Baş Menecer kvalifikasiyana uyğunluq.

**Baş Direktor**
17 kataloq dövründən istənilən 8-i ərzində birinci səviyyədə bir 22%-lik qrup və Şəxsi Qrupda ən azı 7500 BB və ya iki və daha çox 22%-lik qrup.

**Qızıl Direktor**
17 kataloq dövründən istənilən 8-i ərzində birinci səviyyədə iki 22%-lik qrup.

**Baş Qızıl Direktor**
17 kataloq dövründən istənilən 8-i ərzində birinci səviyyədə üç 22%-lik qrup.

**Sapfir Direktor**
17 kataloq dövründən istənilən 8-i ərzində birinci səviyyədə dörd 22%-lik qrup.

Brilliant, İcraçvıə Prezident komandalarına kvalifikasiya meyarları haqqında daha çox məlumatı Uğur Planın tam versiysından əldə edə bilərsiniz.


Brilyant Prezident 1 000 000 $
Sapfir Prezident 400 000 $
Qızıl Prezident 300 000 $
Baş Prezident 200 000 $
Prezident 100 000 $
Brilyant İcraçı Direktor 42 000 $
Sapfir İcraçı Direktor 36 000 $
Qızıl Icraçı Direktor 30 000 $
İcraçı Direktor 24 000 $
İkiqat Brilyant Direktor 10 000 $
Baş Brilyant Direktor 8 000 $
Brilyant Direktor 6 000 $
Sapfir Direktor 4 000 $
Baş Qızıl Direktor 3 000 $
Qızıl Direktor 2 000 $
Baş Direktor 1 500 $
Direktor 1 000 $
Baş Menecer
18% Menecer
15% Menecer
12% Menecer
9% Oriflame Brend partnyoru
6% Oriflame Brend partnyoru
3% Oriflame Brend partnyoru
0% Oriflame Brend partnyoru
Prezident Komandası
Pul mükafatları, İcraçı və Qızıl konfranslara səyahət imkanları ilə Uğur Planın zirvəsinə yüksəlməyinizi qeyd edin.
İcraçı Komanda
Pul mükafatları, İcraçı, Brilyant və Qızıl Konfranslarda iştirak imkanından həzz alın.
Brilyant Komanda
Siz daha çox təcrübə qazanmısınız! Pul mükafatları, Qızıl və Brilyant konfranslarda iştirak imkanı.
Direktorlar Komanda
Qızıl Direktor və daha yuxarı rütbədə Qızıl konfransa getmək imkanını və pul mükafatlarını səbirsizliklə gözləyirik.
Menecer Komandası
Öz biznesinizi qurmağa başlayın - siz doğru yoldasınız!
Oriflame-ə xoş gəlmişsiniz!
Bu sizi uğura aparan yolda ilk addımlarınızdır!
İşarələr
Avtoproqram
Pul mükafatları
İcraçı konfransda iştirak imkanı
Brilyant konfransda iştirak imkanı
Qızıl konfransda iştirak imkanı

# Oriflame alətləri

Məhsulları tövsiyə etmək və satmaq, həmçinin öz biznesinizi qurmağa kömək etmək üçün biz xüsusi alətlər işləyib hazırlamışıq.

## Satış alətləri













**Sosial şəbəkələr kitabxanası**
Burada sosial şəbəkələrdə paylaşa biləcəyiniz şəkillər və mətnlər toplanılıb.

**Skin Expert mobil tətbiqi**
Müştərilərinizi üçün onların dəri tələblərinə cavab verən peşəkar məsləhətlər və tövsiyələr.

**Makeup Wizard mobil tətbiqi**
Müştərilər üçün makiyaj məsləhətləri çox əyləncəli və interaktiv ola bilər.

**"Dəriyə qulluq sessiyası" təqdimatı**
Dəriyə qulluq üzrə sessiyaların keçirilməsi, rekrutinq və bu kateqoriyanın məhsullarının satışı üzrə təqdimat materialları.

**"Wellness sessiya" təqdimatı**
Wellness sessiyalarının keçirilməsi, rekrutinq və bu kateqoriyanın məhsullarının satışı üzrə təqdimat materialları.

**Wellness məhsulları üzrə bələdçi**
Wellness-məhsulları və sağlam həyat tərzi üçün proqramlar haqqında hər şey.

**Oriflame kataloqu**
Ən son yeniliklər və əlverişli təkliflər burada.

## Rekrutlaşdırma üçün alətlər




**Dəvət vərəqləri**
Yeni Brend partnyorları dəvət etmək üçün istifadə olunur.

**“Oriflame imkanları” videosu**
Dəvət üçün video çarxlar – Oriflame-ə qoşulmağa maraq yaratmaq üçündür.

**"Oriflame imkanları" təqdimatı**
Şirkətin imkanlarının ruhlandırıcı şəkildə təqdim edilməsi.

**"Uğurlu start" tətbiqi**
Müstəqil Oriflame Məsləhətçisi kimi işə başlanmaq üzrə addımbaaddım təlimat.

**Qeydiyyat Vidceti**
Yeni Məsləhətçilərinizə sosial şəbəkələr və ya sayt vasitəsilə qeydiyyatdan keçməyə imkan verir.

## Biznes-alətlər




**Məsləhətçinin biznes-paneli**
Biznesinizi idarə edin, proqramlar haqqında son yeniliklər və məlumatlar haqqında xəbərdar olun, sifarişlər yerləşdirin və yeni Məsləhətçiləri qeydiyyatdan keçirin.

**Oriflame mobil tətbiqi**
Məhsullar haqqında məlumat əldə edin, sifariş yerləşdirin və sifarişlərinizi izləyin.

**Biznes-təklif**
Real vaxt rejimində biznesinizi böyüdün və onu idarə edin.

**Conference mobil tətbiqi**
Bütün zəruri məlumatlara çıxış əldə etməklə konfranslar ərzində bütün hadisələr haqqında xəbərdar olun.



“Oriflame-də ən çılğın arzuları gerçəkləşdirmək mümkündür. Mən hələ yolun başındayam”

**Səbinə İbrahimova,**
Sapfir Direktor,
Azərbaycan

“Hər dəfə tədbirlərdə uğurlarına görə mükafatlandırılan insanları görəndə biz bir daha əmin oluruq ki, Oriflame-in əsas dəyəri insanlardır!”

**Zeynəb və Elsəvər Musayevlər**
Qızıl Direktorlar,
Azərbaycan



# Gəlin uğura gedən yoldan birlikdə zövq alaq

Oriflame - bu, böyük, müxtəlif və ilhamlandıran qlobal byuti cəmiyyətdir. Təcrübəmizi, biliklərimizi və təbəssümlərimizi bir-birimizlə bölüşürük, çünki bir-birinə köməyin və bir-birini dəstəkləməyin uğurun açarı olduğuna inanırıq.

Müstəqil Oriflame Brend-partnyorları olaraq, öz biznesinizi öz şə rtlərinizlə idarə edirsiniz, ancaq bu zaman siz tək deyilsiniz. Oriflame üzvlərinin və bütün Oriflame qlobal byuti cəmiyyətinin köməyinə arxalana bilərsiniz.

---

**Baş Menecerinizə müraciət edin və uğura doğru növbəti addımınızı elə bu gün atın!**

# UĞURA APARAN YOLDA

## YENİ BAŞLAYANLAR ÜÇÜN PROQRAM

Oriflame ilə əməkdaşlıq işdən daha çox şey deməkdir.
Bu, məşğul olduğunuz işdən zövq almaq deməkdir.
Yeni zirvələrə yüksələrək siz şirkətin möhtəşəm tədbirlərində yeni tanışlıqlar əldə etmək, mükafatlardan zövq almaq və beynəlxalq konfranslar çərçivəsində dünyanın maraqlı ölkələrini ziyarət etmək fürsəti əldə edirsiniz.

# Uğurun üçün əsas fəaliyyətlər:



## Paylaş

**Aktivliyi qoruyaraq hər gün üç yeni insanla**

İnsanların diqqətini cəlb etmək üçün hekayələri və ilhamlandıran kontenti necə yaratmağı və paylaşmağı öyrən.



## Dəvət et

**İnsanları hər gün məhsulları almağa və Oriflame-ə qoşulmağa**

Məhsulları necə tövsiyə etməyi və insanları öz bizneslərini qurmağa necə dəvət etməyi öyrən.



**Diqqəti**

## Cəlb et

**və müştərilər və brend Tərəfdaşlarınla münasibətlərini qur.**

Müştərilər və brendpartnyorlar ilə münasibətləri necə qoruya biləcəyini və bacarıqlarını necə inkişaf edə biləcəyini "Uğura doğru Addımlar" və "Oriflame Akademiyası" vasitəsilə öyrən.

# Sənin ilk kataloqun

Oriflame ilə tərəfdaşlığın başlanğıcını tədrisə, iş üsullarının və hərəkətlərin öyrənilməsinə həsr et.

24–48s

ORIFLAME İLƏ "UĞURA DOĞRU ADDIMLAR" PROQRAMI

## Biznesin başlanılması

**Qeydiyyatdan keçdikdən dərhal sonra biznesin qurulması üzrə əyləncəli, interaktiv dərslərdən başla. Birinci mərhələni şirkətə qoşulduqdan sonra ilk 24 - 48 saat ərzində tamamlamağı məsləhət görürük.**

### 1 Oriflame-ə xoş gəlmisiniz!

**Oriflame-in salamlama videosunu izlə!**




### 2 Sosial şəbəkələrdə Oriflame qruplarına qoşul

**Komanda Meneceri və ya Direktorunun söhbətində aşağıdakıları öyrənəcəksən:**

- motivasiyaedici proqramlar haqqında;
- faydalı təlimlər haqqında;
- məhsulları necə istifadə etmək və tövsiyə etmək lazımdır.



## 3 Səni nə motivasiya edir?

Məhz səni nə motivasiya edir, bunu başa düşmək üçün **videoya bax**.

**Öz motivasıyanı** Menecer və ya Direktorla **bölüş.**




## 4 Özünüzün qısa tarixçənizi danışın

Niyə Oriflame-i seçdiyinə dair şəxsi hekayə yaratmaq haqqında **videoya bax**.

**Tövsiyələrdən istifadə et** və öz hekayəni oflayn görüşlərdə və sosial şəbəkələrdə **paylaş**.




## 5 Tətbiqlərimizi yüklə

Biznesini inkişaf etdirməyə kömək edəcək dünya səviyyəli smartfon tətbiqləri haqqında **daha çox məlumat əldə et.**

**Yüklə** və onların bütün üstünlüklərini özün üçün kəşf et.

Download on the App Store

GET IT ON Google Play

## 6 Yeni SkinExpert Mobil Tətbiqi: Dəriyə professional qulluq məsləhətləri

Öz dərinin ehtiyaclarını necə müəyyənləşdirməyi öyrənmək üçün **videoya bax.** SkinExpert tətbiqini **yüklə.**




## 7 Öz şəbəkəni qur

**Özünə sual ver:** Oriflame məhsullarını almaq və ya satmaq istəyən kimisə tanıyıram?

Siyahıya **ilk 30 adı əlavə et.**




## 8 Öyrən

Hansı təlim və görüşlərə qatıla biləcəyinə qərar ver və aşağıdakılara mütləq qatıl:

- "Oriflame Akademiyası" (addımlar 1 - 3);
- byüti və Wellness görüşləri;
- kampaniyaların işə salınmaları.

ORIFLAME ACADEMY

ORIFLAME İLƏ "UĞURA DOĞRU ADDIMLAR" PROQRAMI

48-72s

# Biznesinin işə salınması

**Bu hərəkətləri şirkətə qoşulduqdan sonra ilk 48-72 saat ərzində yerinə yetir.**

## 9 Qrup yarat

**Videonu izlə** və sosial şəbəkələrdə öz qrupunu necə yaratmağı öyrən.

**Tövsiyələrdən** və öz tarixçəndən **istifadə et.**

## 10 Öz biznesinə başla

Sosial şəbəkələrdə insanları qrupa necə dəvət etməyi və biznesin barədə necə danışmağı **öyrən.**
"İsti" əlaqələrin siyahısı ilə **başla.**




## 11 Byüti görüşlərə dəvət

Oriflame görüşləri müxtəlif maraqların nəzərə alınması ilə təşkil edilir. Öz Menecerin və ya Direktorun növbəti byüti və ya biznes görüşünə **beş nəfər dəvət et.**



## 12 İlk sifarişini yerləşdir

**Sifarişi yerləşdir** və Start Proqramında iştirak et.




## 13 Biliklərini inkişaf etdir

Menecerinlə və ya Direktorunla əlaqə saxla və **təlimlərə və məhsul görüşlərinə qatıl. Onlayn kursu başla:** "Oriflame məhsul təcrübəsi və innovasiyalar".




## 14 Komandaya qoşul

**Biznesin inkişafı ilə maraqlanırsansa,** Menecerinlə və ya Direktorunla onların Əsas komandalarına qoşulmaq üçün mütləq əlaqə saxla.



ORIFLAME İLƏ "UĞURA DOĞRU ADDIMLAR" PROQRAMI

# Qablaşdırmanın sosial şəbəkələrdə açılması

**Sifarişini aldıqda, onun qablaşdırmasının açılması videosunu çək və hər Oriflame məhsulu haqqında danış.**

## 15 Sifariş bağlamasını açmaqla öz videonu yarat

**Videonu izlə** və qablaşdırmanı açmağa dair videonu necə yaratmağı və onu sosial şəbəkələrdəki qrupunda necə paylaşmağı




## 16 Öz məhsul tarixçəni yarat

**Videonu izlə** və öz məhsul hekayəni necə yaratmağı və onu sosial şəbəkələrdə və şəxsi görüşlərdə necə paylaşmağı öyrən.





# Sənin ikinci kataloqun və sair

Vərdiş formalaşdırmağa diqqət yetir, çünki uğur bir anda əldə edilə bilməz: o, kiçik, lakin gün dəlik hərəkətlər tələb edir. Nə qədər çox səy göstərsən, uğurlu olmağının ehtimalı bir o qədər yüksək olacaq.



**Aktivliyi artırmaq üçün aşağıdakı bəndləri hər gün ən azı üç yeni insanla**

## Paylaş

- Sevdiyin məhsul və/və ya biznes uğuru haqqında hekayə.
- Oriflame kataloqu - yeniliklər və təkliflər.
- Niyə sən Oriflame-i seçdin.



**İnsanları hər gün alış-veriş etməyə və qoşulmağa**

## Dəvət et

- Hər gün ən azı bir nəfərdən sifariş aldığından əmin ol.
- Menecerinin və Direktorunun hər byüti və biznes görüşünə ən azı bir nəfəri dəvət et.
- Menecerinin və Direktorunun hər byüti və biznes görüşünə ən azı bir nəfəri dəvət et.





# Maraq oyat

**və müştərilərin və Brend-partnyorlarınla əlaqələr qur.**

- Oriflame byuti cəmiyyətinə qoşul və hər gün yeni mövzuları müzakirə et.
- Hər kataloq dövründə müştərilərinin və brendin yeni Tərəfdaşları ilə ünsiyyət et və aktivliyi qoru.
- "Uğura doğru Addımlar" proqramını bitir və Start Proqramın bütün addımlarını tamamla.

**Oriflame imkanlarını araşdırmağav ə paylaşmağa davam et, öz komandanı möhkəmləndir, müştərilərin və Brend-partnyorların ilə dostluq münasibətlərini qur və inkişaf etdir.**

Buradakı ifadələr və misallar yalnız nümunə üçün təqdim edilmişdir. Oriflame gəlirə aid heç bir zəmanət vermir. Faktiki maliyyə nəticələri Oriflame-in sərbəst Məsləhətçilərinə görə dəyişə bilər və hər bir Məsləhətçinin bacarığı, iş təcrübəsi, fərdi imkanları, cəhdləri və sərf etdiyi zaman kimi faktorlardan asılı olacaq.

Copyright ©2020 Oriflame Cosmetics AG

514740